


AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

May 2019

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “BİZ YENİ İQTİSADİ MODEL ÜZƏRİNDƏ İŞLƏYİRİK VƏ ELƏ ETMƏLİYİK Kİ, ÖLKƏ İQTİSADİYYATI BUNDAN SONRA DA DAYANIQLI ŞƏKİLDƏ İNKİŞAF ETSİN”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 30 aprel tarixində Nazirlər Kabinetinin
2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının
yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan
iclasındakı nitqindən



“Bu il iri sənaye müəssisələrinin açılışı olmuşdur. İki böyük zavodun – karbamid və yüksək sıxlıqlı polietilen zavodlarının açılışı bizim sənaye potensialımızı böyük dərəcədə gücləndirir. Bu zavodlarda yüzlərlə yeni iş yeri yaradılıb. Orada işləyən vətəndaşlar təlim keçiblər. Onlar bir neçə ölkədə təlim kurslarında olmuşlar. Orada işləyənlərin əksəriyyəti gənc mütəxəssislərdir. Bu, həm yeni texnologiyalardır, həm qeyri-neft sektorunun inkişafıdır, ixrac potensialımızın artırılmasıdır.

Bu, bir daha onu göstərir ki, Azərbaycan sənaye istehsalı sahəsində böyük işlər görməyə qadirdir. Əlbəttə ki, sənaye istehsalı növbəti illərdə bizim üçün prioritet məsələlərdən biri olacaq. Əminəm ki, həm yerli, həm də xarici sahibkarlar bu işlərə diqqət göstərəcəklər”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 11

2019-cu ilin I rübündə Azexport.az portalına 229,3 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 17

Azexport.az portalı “WorldFood Azerbaijan 2019” sərgisində iştirak etmişdir ____ səh. 21

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzi sahibkarların xidmətindədir ____ səh. 22

"İxrac gömrük əməliyyatında beynəlxalq daşınma" mövzusunda təlim keçirilmişdir ____ səh. 25

Çin Xalq Respublikasının Şanxay şəhərinə növbəti ixrac missiyası təşkil olunmuşdur ____ səh. 26

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-APREL AYLARINDA** qeyri-neft sektoru üzrə **583 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **98 milyon** ABŞ dolları və ya **20%** **ARTMIŞDIR**

2019-cu ilin yanvar-aprel ayları ərzində Azərbaycan Respublikasının ixracı **7,1 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **1,4 milyard** ABŞ dolları və ya **25,6 faiz** artmışdır. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən bu müddətdə qeyri-neft sektoru üzrə ixrac isə **583 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar-aprel ayları ərzində qeyri-neft sektoru üzrə ixrac **98 milyon** ABŞ dolları və ya **20 faiz** artmışdır. Cari ilin ilk dörd ayı ərzində Rusiyaya **164,9 milyon**, Türkiyəyə **147,8 milyon**, Gürcüstana **62,3 milyon**, İsveçrəyə **44,7 milyon** və İtaliyaya **21,9 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac edilmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin ilk dörd ayında Rusiyaya qeyri-neft ixracı **21,8 faiz**, Türkiyəyə **16,2 faiz**, Gürcüstana **18,7 faiz**, İsveçrəyə **12,9 faiz**, İtaliyaya **2 dəfə** artmışdır.

2019-cu ilin yanvar-aprel ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısına mahlıc (**57,9 milyon** ABŞ dolları) liderlik etmişdir. Bu siyahıda qabığı təmizlənmiş meşə fındığı (**53,7 milyon** ABŞ dolları) ikinci və tomat (**49,6 milyon** ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Həmçinin cari ilin yanvar-aprel aylarında elektrik enerjisi, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen, metanol (metil spirti), xurma da qeyri-neft ixracında önə çıxmışdır.

Ümumiyyətlə, 2019-cu ilin ilk dörd ayı ərzində meyvə-tərəvəz ixracı **149,1 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **62,1 milyon**, pambıq lifi ixracı **58,2 milyon**, elektrik enerjisinin ixracı **45,1 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **31,6 milyon**, kimya sənayesi məhsullarının ixracı **24,3 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **18,3 milyon**, pambıq ipliyi ixracı **9,4 milyon** ABŞ dolları, alkoqollu və alkoqolsuz içkilərin ixracı **9,3 milyon** təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-aprel aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı **2,5 dəfə**, pambıq lifinin ixracı **83 faiz**, pambıq ipliyinin ixracı **42 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **36 faiz**, meyvə-tərəvəzin ixracı **34 faiz**, kimya sənayesi məhsullarının ixracı **32 faiz** artmışdır.

2019-cu ilin aprel ayında isə qeyri-neft sektoru üzrə ixrac **167 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin aprel ayı ilə müqayisədə 2019-cu ilin aprel ayında qeyri-neft sektoru üzrə ixrac **38 milyon** ABŞ dolları və ya **29 faiz** artmışdır. Cari ilin aprel ayında qeyri-neft sektoruna aid ən çox mal Rusiyaya (49,6 milyon ABŞ dolları), Türkiyəyə (48,6 milyon ABŞ dolları) və Gürcüstana (12,1 milyon ABŞ dolları) edilmişdir.

2019-cu ilin aprel ayında qeyri-neft sektoru üzrə ixracda tomat (24,2 milyon ABŞ dolları) birinci, daranmaya məruz qalmamış pambıq lifi (20,5 milyon ABŞ dolları) ikinci, qabığı təmizlənmiş meşə fındığı (15,3 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Eyni zamanda 2019-cu ilin aprel ayında qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), elektrik enerjisi, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, metanol (metil spirti), ilkin formalı polipropilen, emal olunmamış aşqarlanmamış alüminium qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2019-cu ilin yanvar-aprel ayları ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR-APREL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI MAY



# 2019-CU İLİN **APREL AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**

**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **YANVAR-APREL AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



## 2019-CU İLİN YANVAR-APREL AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI MAY

### Mahlıc


### Fındıq ləpəsi


### Tomat


### Elektrik enerjisi


### Qızıl


### İlkin formalı polietilen


### İlkin formalı polipropilen


### Metanol (metil spirti)


### Xurma


### Digər


| Mal | 2019 | 2018 |
|---|---|---|
| Mahlıc | 57,9 | 20,2 |
| Fındıq ləpəsi | 53,7 | 30,4 |
| Tomat | 49,6 | 42,5 |
| Elektrik enerjisi | 45,1 | 47,3 |
| Qızıl | 43,1 | 34,3 |
| İlkin formalı polietilen | 28,9 | 35 |
| İlkin formalı polipropilen | 28,6 | 0,4 |
| Metanol (metil spirti) | 19,1 | 2,6 |
| Xurma | 18,1 | 19,2 |
| Digər | 238,6 | 253,4 |

# 2019-CU İLİN **APREL AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

| Mal | 2019 | 2018 |
|---|---|---|
| Tomat | 24,2 | 18,5 |
| Mahlıc | 20,5 | 7 |
| Fındıq ləpəsi | 15,3 | 6,7 |
| Qızıl | 10,5 | 3,4 |
| Elektrik enerjisi | 6,7 | 13,4 |
| İlkin formalı polietilen | 6,5 | 8,7 |
| Digər yağlar və məhsullar | 5,6 | 0 |
| Metanol (metil spirti) | 5,2 | 0,4 |
| İlkin formalı polipropilen | 5,1 | 0,1 |
| Digər | 67,8 | 70,7 |

# 2018-Cİ İLİN VƏ 2019-CU İLİN **YANVAR-APREL AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI MAY

## 2018

Yanvar
Qızıl
**17,2**

Fevral
Elektrik enerjisi
**17,7**

Mart
Elektrik enerjisi
**13,6**

Aprel
Pomidor
**18,5**

## 2019

Yanvar
Xurma
**12,6**

Fevral
Elektrik enerjisi
**19,4**

Mart
Fındıq ləpəsi
**13,7**

Aprel
Pomidor
**24,2**

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-APREL AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-aprel ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-aprel ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Socar Polymer" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "P-Aqro" MMC, "Sun Food" MMC, "Aqrovest" MMC, "Baku Steel Company" MMC, "Azhazelnut" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "TST Export" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, Dövlət Material Ehtiyatlari Agentliyi, "Azəripək" MMC, "Bakı Neft Maşınqayırma Zavodu" TASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



2019-CU İLİN **YANVAR-APREL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI MAY




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-APREL AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI MAY

| | 2019-cu il | 2018-ci il |
|---|---|---|
| ARDNŞ-nin "MARKETİNQ və İQTİSADİ ƏMƏLİYYATLAR İDARƏSİ" | 60,3 milyon | 64,3 milyon |
| "AZƏRENERJİ" ASC | 45,1 milyon | 47 milyon |
| "AZƏRALÜMİNİUM" MMC | 26,8 milyon | 0 |
| "AZERGOLD" QSC | 17,9 milyon | 6,7 milyon |
| "AZƏRPAMBIQ AQRAR SƏNAYE KOMPLEKSİ" MMC | 6,9 milyon | 0 |
| "AZƏRBAYCAN HAVA YOLLARI" QSC | 5,9 milyon | 5,6 milyon |
| "CTS-AGRO" MMC | 3,9 milyon | 6,7 milyon |
| DÖVLƏT MATERİAL EHTİYATLARI AGENTLİYİ | 555 min | 0 |
| "AZƏRİPƏK" MMC | 438 min | 0 |
| "BAKI NEFT MAŞINQAYIRMA ZAVODU" ASC | 377 min | 81 min |



# 2019-CU İLİN **YANVAR-APREL AYLARINDA “AZƏRKOSMOS” ASC 13,7 MİLYON** ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2019 İXRAC İCMALI MAY



2019-cu ilin yanvar-aprel aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın **18 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **89 faizini** təşkil etmişdir.

2019-cu ilin aprel ayında isə “Azərkosmos” ASC dünyanın 17 ölkəsinə **6,1 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-aprel aylarında “Azərkosmos” ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**




| Ölkə | Məbləğ |
|---|---|
| ABŞ | 4,8 milyon $ |
| Malayziya | 4,2 milyon $ |
| Fransa | 2,9 milyon $ |
| Birləşmiş Krallıq | 764 min $ |
| BƏƏ | 394 min $ |



## 2019-cu ilin **YANVAR-APREL AYLARINDA** Azərbaycana gələn xarici vətəndaşlar **BANK KARTLARI VASİTƏSİ İLƏ** **374,8 milyon** manatlıq əməliyyat aparmışlar

## Cari ilin **APREL AYINDA** ölkəmizə gələn xarici vətəndaşların **BANK KARTLARI VASİTƏSİ İLƏ** apardıqları əməliyyatların dəyəri **103,2 milyon** manat təşkil etmişdir

2019-cu ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 170 ölkəsindən 848,4 min və ya 2018-ci ilin yanvar-aprel ayları ilə müqayisədə 0,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 27,3 faizi Rusiya Federasiyası, 26,8 faizi Gürcüstan, 11,1 faizi Türkiyə, 8,0 faizi İran, 3,8 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,8 faiz olmaqla Ukrayna və Hindistan, 1,4 faizi Pakistan, 1,3 faizi İraq, 16,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur.

Ölkəmizə yanvar-aprel aylarında gələnlərin sayında daha çox artım Misir (2,2 dəfə), Səudiyyə Ərəbistanı (1,9 dəfə), Hindistan (1,8 dəfə), Türkmənistan (1,8 dəfə), Çin (1,6 dəfə), Yaponiya (37,1 faiz), Kanada (31,8 faiz), Pakistan (28,8 faiz), Gürcüstan (22,6 faiz), Polşa (20,8 faiz) və Cənubi Koreya (20,5 faiz) vətəndaşları arasında qeydə alınmışdır. Cari ilin yanvar-aprel aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 7,0 faiz artaraq 34,2 min nəfər olmuşdur.

2019-cu ilin yanvar-aprel ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri 374,8 milyon manat olmuşdur.

Cari ilin aprel ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri isə **103,2 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN
**BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ
**(milyon manatla)**

İXRAC İCMALI 2019 MAY

## 2017

Yanvar - **86,8**
Fevral - **72,5**
Mart - **91,1**
Mart - **80,6**

**Cəmi - 331**

## 2018

Yanvar - **99,8**
Fevral - **91,1**
Mart - **105,8**
Aprel -**109,7**

**Cəmi - 406,4**

## 2019

Yanvar - **88,3**
Fevral - **85,3**
Mart - **98**
Aprel - **103,2**

**Cəmi - 374,8**

3

# 2019-CU İLİN YANVAR-APREL AYLARINDA AZEXPORT.AZ PORTALINA 229,3 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

## ÖTƏN ILIN MÜVAFIQ DÖVRÜ ILƏ MÜQAYISƏDƏ portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından **3 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-aprel aylarında Azexport.az portalına **229,3 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ildə ixrac sifarişləri **3 faiz** artmışdır. Cari ilin aprel ayında portala daxil olan ixrac sifarişlərinin dəyəri isə **50,9 milyon** ABŞ dolları təşkil etmişdir. 2019-cu ilin aprel ayı ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Rusiya (12,3%), Türkiyə (8%), İngiltərə (6,5%), Hindistan (6,5%) və ABŞ (5,5%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, cari ilin aprel ayında ən çox ixrac sifarişi tütün, badımcan, pambıq və pambıq məhsulları, kartof, soğan, qənnadı məhsulları, meyvə kompotu, yumurta, mühərrik yağı, çay, tikinti materialı, kələm, buğda kəpəyi, şərab, qoyun yunu, kosmetik vasitə, konservləşdirilmiş tərəvəz, alma, gül və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 aprel tarixinə kimi (28 ay ərzində) Azexport.az portalına dünyanın **129 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 218,4 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.




Yanvar - **91,7 milyon**
Fevral - **53,9 milyon**
Mart - **32,8 milyon**
Aprel - **50,9 milyon**

| 2017-ci il ərzində | 2018-ci il üzrə | 2019-cu il |
|---|---|---|
| **CƏMİ - 475 milyon** | **CƏMİ - 514,1 milyon** | **CƏMİ - 229,3 milyon** |



Son **28 ay** ərzindəki sifarişlərin cəmi - **1 218,4 milyon**

# 2019-CU İLİN **APREL AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI MAY

Tütün



Kartof



Pambıq və pambıq məhsulları



Badımcan



Soğan



Qənnadı məhsulları



Meyvə kompotu



Yumurta



Mühərrik yağı



Çay



Tikinti materialı




Kələm



Buğda kəpəyi



Şərab



Qoyun yunu



# 2019-CU İLİN **YANVAR-APREL AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



4

# AZEXPORT.AZ PORTALI “WORLDFOOD AZERBAIJAN 2019” SƏRGİSİNDƏ İŞTİRAK ETMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin operatoru olduğu Azexport.az portalı Bakıda keçirilən regionun qida sənayesi üzrə mühüm və əhəmiyyətli tədbirlərindən biri olan Azərbaycan Beynəlxalq Qida Sənayesi “WorldFood Azerbaijan 2019” sərgisində “Səyyar Xidmət Mərkəzi” ilə təmsil olunmuşdur.

Sərgidə Azexport.az portalının “Səyyar Xidmət Mərkəzi”-nə yerli və xarici ziyarətçilərin böyük marağı müşahidə olunmuşdur. Portalın meneceri Ayxan Qədəşovun məlumatına görə, Rusiya, Almaniya, İtaliya, Belarus, Türkiyə, Ukrayna kimi ölkələrdən olan ziyarətçilərlə yanaşı respublikada qida, kənd təsərrüfatı və qablaşdırma sahələri üzrə ixtisaslaşmış şirkət nümayəndələri “Səyyar Xidmət Mərkəzi” ilə tanış olmuşlar. Ziyarətçilərə portalın yerli sahibkarlar üçün yaratdığı geniş imkanlardan və qısa zaman ərzində qazandığı uğurlar barədə ətraflı məlumatlar verilərək, daha yaxından əməkdaşlığa dəvət olunmuşlar. Dörd ixtisaslaşmış sərgidə ümumilikdə dünyanın 32 ölkəsini təmsil edən 440 şirkət, eləcə də 11 milli və regional qrup təmsil olunmuşdur.

Qeyd edək ki, Azexport.az portalı artıq üçüncü ildir ki, ölkəmizdə keçirilən analoji sərgidə iştirak edir.






# 5

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ SAHİBKARLARIN XİDMƏTİNDƏDİR

2019-cu ilin may ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən sahibkarlara ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Nəticədə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə cari ilin may ayında **17,8 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilkidə isə 2019-cu ilin ilk beş ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə verilən sənədlərə əsasən **49,2 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı reallaşdırılmışdır.

Cari ilin may ayı ərzində ixracatçılara əsasən polad kvadrat pəstah, polad armatur yayması, polad boru, polad məftil, meyvə şirəsi, pomidor, tütün, buğda yarması, iri buynuzlu heyvan dərisi, fındıq qabığı, pambıq iplik tullantısı, çuğundur, kök, lobya, yer dombalanı, dondurulmuş Xəzər kilkəsi, nar şirəsi, biyan kökü, qiymətli metal külçələr, çiyələk, kolbasa, fındıq ləpəsi, ayaqqabı altlığı, sirkə turşusu, qoyun bağırsağı və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir.

Sertifikat verilən məhsullar Rusiya, Türkiyə, Gürcüstan, İtaliya, Ukrayna, BƏƏ, Çin, İraq, İsveçrə, ABŞ, Cənubi Koreya, İsrail, Qazaxıstan, Özbəkistan, İran daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN YANVAR-MAY AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)






# 2019-CU İLİN **MAY AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**

RUSİYA
**22,0%**

TÜRKİYƏ
**14,0%**

GÜRCÜSTAN
**12,0%**

İTALİYA
**4,0%**

UKRAYNA
**4,0%**




BƏƏ
**4,0%**

ÇİN
**4,0%**

İRAQ
**4,0%**

İSVEÇRƏ
**2,0%**

DİGƏR
**30, 0%**

# 6

# "İXRAC GÖMRÜK ƏMƏLİYYATINDA BEYNƏLXALQ DAŞINMA" MÖVZUSUNDA TƏLİM KEÇİRİLMİŞDİR

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "Bir Pəncərə" İxraca Dəstək Mərkəzində ixracatçı sahibkarlar üçün həyata keçirilən "2019 İxraca Dəstək" layihəsinin II hissəsi üzrə təşkil olunan "İxrac gömrük əməliyyatında beynəlxalq daşınma" mövzusunda yekun təlim keçirilmişdir. Təlimdə beynəlxalq daşınmalar üzrə mütəxəssis Nicat Şabanlı ixrac gömrük əməliyyatlarında beynəlxalq daşınma prosesi, beynəlxalq daşınmanın növləri, nəqliyyat sənədlərinin tərtib olunma standartları və beynəlxalq daşınma ilə bağlı sahibkarlara məlumat vermişdir. Həmçinin iştirakçılara ixrac gömrük prosesinin gedişi, iqtisadi alqı-satqı müqavilələrinin tərtib olunması, ixrac hesab fakturalarının hazırlanması, ixrac zamanı tələb olunan icazə sənədlərinin alınması, ixracda xarici bazarların araşdırılması, ixracda biznes strategiyası, beynəlxalq daşınmalar və digər ixrac əməliyyatları ilə bağlı geniş təqdimat təqdim edilmişdir.

Yekunda təlimdə iştirak edən sahibkarlara sertifikatlar təqdim olunmuşdur.

Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "İnnovasiyalar Mərkəzi"-nin və "My Broker" gömrük təmsilçiliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və Dövlət Gömrük Komitəsinin rəsmi dəstəyi ilə təşkil olunan təlimlərin hər birində iştirak ödənişsiz əsaslar ilə həyata keçirilmişdir.





7

# ÇİN XALQ RESPUBLİKASININ ŞANXAY ŞƏHƏRİNƏ NÖVBƏTİ İXRAC MİSSİYASI TƏŞKİL OLUNMUŞDUR

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə cari ilin 13-18 may tarixlərində Çin Xalq Respublikasının Şanxay şəhərinə növbəti ixrac missiyası təşkil olunmuşdur.

Azərbaycanın qida, şərab və digər spirtli içkilərin istehsalı sahəsində fəaliyyət göstərən 17 şirkətinin daxil olduğu missiya çərçivəsində Çinin Yivu və Şanxay şəhərlərində ixracının genişləndirilməsinə dair müzakirələr aparılmışdır.

Eyni zamanda Şanxay şəhərində keçirilən "Sial China 2019" beynəlxalq sərgisində Azərbaycan şirkətlərinin məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirilmişdir. Sərgi çərçivəsində Azərbaycan sahibkarları xarici ölkələrdən olan həmkarları ilə görüşlər keçirmiş, məhsulların satışına dair müzakirələr aparmışlar. Belə ki, "Agro-Azərinvest" şirkəti nar şərabının, "Naiqin Ko Tovuz Baltiya" şirkəti nar şərabının və nar şirəsinin ixracına dair razılıq əldə etmiş, "Az-Granata" şirkəti isə şərab məhsullarının ixracına dair danışıqlar aparmışdır.

Bundan əlavə, Azərbaycanın "Aspi-Agro", "Merit Brand", "Caspian Coast Winery and Vineyards", "Abşeron Şərab", "Mərəndi", "Naiqin Ko Tovuz Baltiya", "Aznar", "İsmayıllı Şərab 2", "Cəlilabad Şərab-2" və "Şərq Ulduzu" şirkətlərinin istehsal etdikləri məhsullar Çin, Tayvan, Hong Kong, İsrail və digər ölkələrdən olan idxalçılar tərəfindən maraqla qarşılanmış, ixraca dair müzakirələrə başlamışlar.






**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

